BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2024*

UOT 34.347

# ƏMƏK HÜQUQUNUN MAHİYYƏTİ

**Ü.A.ƏKBƏRLİ**
***Bakı Dövlət Universiteti***
***ulkar.akbarli@gmail.com***

*Məqalədə vətəndaşların sosial-iqtisadi hüquqlarından biri kimi əmək hüququnun mahiyyəti araşdırılaraq qeyd olunur ki, bu hüquq insanın dəyişməz təbiətindən irəli gəlir və yaşamaq hüququ ilə bağlıdır. İnsanın ayrılmaz, təbii hüququ kimi əmək hüququnun əsasını həyat və özünümüdafiə təşkil edir.*

*Əvvəllər ölkəmizdə bazar iqtisadiyyatı prosesi başlanana qədər əmək hüququna əmək müqaviləsi bağlanana qədər təminat verilirdisə, indi ona artıq əmək müqaviləsi bağlandıqdan sonra işçinin ona işəgötürənlə şərtləşdirilmiş işin təqdim edilməsi hüququ şəklində təminat verilir. Konstitusion əmək hüququ vətəndaşların bütün əmək hüquqlarının hüquqi bazasını təşkil edir. Əmək sahəsinə aid konstitusion hüquqların əksəriyyəti subyektiv xarakterlidir. Aparılmış tədqiqat nəticəsində belə bir nəticəyə gəlinmişdir ki, əmək hüququ- bu, hər hansı təminatsız səlahiyyət deyil, hüquq münasibətləri çərçivəsində mövcud olan hüquqdur. Ancaq hüquq münasibətləri kateqoriyası vasitəsilə bu konstitusion hüququn hüquqi təbiətini və sosial əhəmiyyətini açmaq olar. Beləliklə, əmək hüququnu vətəndaşların dövlət tərəfindən təmin edilmiş və təminat verilən, qanunvericilikdə təsbit edilmiş imkan kimi müəyyənləşdirmək olar.*

**Açar sözlər:** əmək, hüquq, əmək hüququ, əmək azadlığı

Əmək hüququnun müxtəlif alimlər tərəfindən tədqiq edilməsinə baxmayaraq [34; 38; 35; 37; 22] hazırda ölkəmizdə siyasi və iqtisadi situasiyasının əsaslı dəyişməsi sayəsində bu problem daha da aktuallaşır. Əmək hüququnun tədqiqinin aktuallığı müasir şəraitdə məzmununu əmək hüququna ənənəvi yanaşma üçün prinsipal olaraq yeni müddəalar təşkil edən Azərbaycan Respublikasının yeni Konstitusiyasının, habelə Azərbaycan Respublikasının yeni Əmək Məcəlləsinin (bundan sonra qısaca olaraq AR ƏM) qəbulu ilə şərtlənmişdir.

Bütün bunlar əmək hüququ və onun realizəsinin səmərəli sisteminin yaradılması nəzəriyyəsinin kök salmış müddəalarının yenidən nəzərdən keçirilməsinin zəruriliyi ilə şərtlənir.

Sosialist nəzəriyyəsində əmək hüququ konsepsiyası əməyin insanın

daxili tələbatı olmasının tanınmasına əsaslanırdı. Bu əməyin ümumiliyi prinsipinin elan olunmasına və nəticə etibarı ilə əmək hüququnun realizəsində məcburiyyətə gətirib çıxartdı. Hesab edirik ki, əmək hüququ insanın əzələ və ya əqli səylərinin məcmusu kimi əməyə olan tələbatına əsaslanmır, hər şeydən əvvəl, yaşamaq hüququ və insanın özünü reallaşdırma hüququ ilə bağlıdır. Yaşamaq hüququndan törəmə olan və özünü reallaşdırma hüququ ilə qarşılıqlı surətdə bağlı olan əmək hüququnun əhəmiyyətini heç bir halda aşağı salmaq olmaz. Başqa sözlə, əmək hüququ insanın ayrılmaz hüququdur və onun mənbəyi qismində həyatın təmin edilməsi və özünü ifadə tələbatı çıxış edir.

Yaşamaq üçün insana qida, geyim, başının üzərində tavan və s. lazımdır. Bütün bu həyati rifahlar insan fərdlərinin onlara əməklə məşğul olmaq və öz həyatlarını təşkil etməyi təmin edə bilən dövləti təşkilinin olmadığı dövrdən etibarən əməyin sayəsində əldə olunur. Beləliklə, əmək hüququ insanın dəyişməz təbiətindən irəli gəlir və yaşamaq hüququ ilə bağlıdır. Məşhur sosial-utopist Şarl Furye hələ XIX əsrin başlanğıcında əmək hüququndan insanın elə bir ilkin hüququ kimi söz açırdı ki, həmin hüquq olmadan bütün qalan hüquqlar mənasını itirmiş olardı: «Biz yüzillikləri insan hüquqları haqqında gülməli mübahisələrdə keçirərək, ən mühüm olanın - mövcud olmadıqda digər hüquqların heç bir dəyərə malik olmadığı əmək hüququnun dərkinin qayğısına qalmamışıq» [29, s.98]. Ş.Furyedən xeyli əvvəl görkəmli alman filosofu Fixte əmək hüququnu əsaslandırmış, onu əbədi olan, insana təbiət tərəfindən verilmiş hüquq kimi nəzərdən keçirmişdir [29, s.88].

İnsan dərrakəli varlıqdır, onun üçün minimum qida, geyim, sadəcə olaraq başı üzərində tavan kifayət deyil. Onun təbiətində nəinki yaşamaq instinkti, həmçinin həyat tərzinin yüksəlişi mənasında və bir şəxsiyyət kimi təkmilləşməyə daim cəhd vardır.

Beləliklə, demək olar ki, əmək hüququ onun həyata keçirilməsi hüququ ilə bağlıdır. Bu planda az tanınan kiçik burjuaziya utopisti Karl Marlo təxəllüslü K.Q.Vinkelblexin əmək hüququ ilə bağlı fikri çox maraqlıdır. “İnsanın nəinki sadəcə olaraq əmək hüququ, eləcə də ən məhsuldar əmək hüququ vardır, yəni onun nəinki öz fiziki tələbatına, eləcə də bunların daha tam təmin edilməsinə nail olmaq hüququ vardır”. O, daha sonra fikrini davam etdirərək yazır: “Daha tam inkişaf etmiş şəxsiyyətin mümkünlüyü” haqqında danışmağa dəymir. Belə ki, insan nəinki əmək hüququ, eləcə də ən nəticəvi əmək hüququ tələb edir, yəni elə bir əmək ki, onun ödənilməsi sənayenin tərəqqisi ilə birlikdə artır və daimi olaraq yüksəkdir” [29, s.104-105].

Yuxarıda göstərilənlərdən belə bir nəticəyə gəlmək olar ki, K.Marlo əmək hüququnu şəxsiyyətin daha tam inkişafı ilə əlaqələndirir. Nəticədə bu müddəa marksizm-leninizm baniləri və onların ardıcılları tərəfindən inkişaf

etdirilmişdir. Onlar hesab edirdilər ki, ancaq əməyin istismardan azad olunduğu sosializm şəraitində əmək şəxsiyyətin özünü realizəsinə kömək edir [30, s.305].

Təəssüf ki, bu nəzəriyyə həyatda öz təsdiqini tapmadı. Qeyd etməliyik ki, sosializimdə də insanın az da olsa istismarı mövcud idi və burada əmək, ancaq yaşamaq üçün ödənilirdi. O, realizəsi üçün dövlət məcburiyyətindən istifadə olunan hüquqa çevrildi. Bizim fikrimizcə, bu ona görə baş verdi ki, əməyin həyata keçirilməsi üzrə nəzəriyyədə olduğu kimi siyasətçilərin fəaliyyətinin əsasını insanların həqiqi tələbatları deyil, əməkçi xalqın maraqları, işıqlı gələcəyin qurulması üzrə vəzifələr, yaxud da yuxarı idarəedici orqanın maraqları kimi mücərrəd kateqoriyalar təşkil edirdi.

Bu gün doqmalardan yaxa qurtarmaq üçün əsas insan hüquqlarından biri olan əmək hüququnun yenidən dərk edilməsinin vaxtı gəlmişdir. İnsanın ayrılmaz, təbii hüququ kimi əmək hüququnun əsasını həyat və özünüifadə təşkil edir. Lakin əmək hüququnun "təbiiliyi" və ayrılmazlığı üzərində dayanmaq həyata keçirilməyən bəyannamələrlə bərabərdir. Müasir cəmiyyətdə bu hüququn real həyata keçirilməsi üçün dövlətin qanunların qəbulunda ifadə olunan və onun realizəsini təmin edən gücü zəruridir.

1936-cı ildə SSRİ Konstitusiyasının qəbul edilməsi ilə əmək hüququ ilk dəfə olaraq vətəndaşın konstitusiya hüququ səviyyəsinə qaldırıldı. Onda əmək hər bir əmək qabiliyyətli vətəndaşın vəzifəsi və şərəf işi elan olunur və sosializmin «hər kəsdən qabiliyyətinə görə, hər kəsə əməyinə görə» prinsipi bəyan olunurdu (maddə 12). Konstitusiyanın 118-ci maddəsi SSRİ vətəndaşlarına əmək hüququ, yəni onların əməyi onun kəmiyyətinə və keyfiyyətinə müvafiq surətdə ödənilməklə təminatlı iş almaq hüququ verirdi.

Daha sonra həmin maddədə əmək hüququnun həyata keçirilməsinin «əmək hüququnun istinad etdiyi və istinad edə biləcəyi əsas olan» iqtisadi (maddi) təminatları sadalanırdı. Beləliklə, əmək hüququ xalq təsərrüfatının sosialist təşkili, sovet cəmiyyətinin məhsuldar qüvvələrinin durmadan artması, təsərrüfat böhranı imkanının aradan qaldırılması və işsizliyin ləğvi ilə təmin olunurdu.

Əmək hüququ Azərbaycan SSR-in 10 dekabr 1971-ci il Əmək Qanunları Məcəlləsində (bundan sonra qısaca olaraq Azərb.SSR ƏQM) və Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında (Əsas Qanunu) daha da inkişaf etdirildi. Azərb. SSR ƏQM-ə əmək hüququnu təsbit edən 2-ci maddə daxil edilmişdi. Əvvəlki Konstitusiya ilə müqayisədə əmək hüququnun məzmunu Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında xeyli genişləndirilmişdi. Belə ki, həmin Konstitusiyanın 38-ci maddəsində deyilirdi ki, Azərbaycan SSR vətəndaşları əmək hüququna, yəni əməyin kəmiyyətinə və keyfiyyətinə uyğun olaraq və dövlət tərəfindən müəyyən edilmiş minimum məbləğdən aşağı olmamaqla haqqı ödənilən təminatlı iş almaq hüququna, o

cümlədən həvəsinə, qabiliyyətinə, peşə hazırlığına, təhsilinə münasib olaraq və ictimai tələbat nəzərə alınmaqla, peşə, məşğuliyyət növü və iş seçmək hüququna malikdirlər.

Bu hüquq sosialist təsərrüfat sistemi, məhsuldar qüvvələrin durmadan artması, pulsuz peşə təlimi, əmək ixtisasının artırılması və yeni ixtisasların öyrədilməsi, peşə seçməkdə istiqamətləndirmə və işə düzəltmə sistemlərinin inkişaf etdirilməsi ilə təmin olunur [4, s.15].

Analoji norma SSRİ-nin 1977-ci il Konstitusiyasının (Əsas Qanunu) 40-cı maddəsində də təsbit olunmuşdur [11, s.17].

Azərbaycan SSR-nin 1978-ci il Konstitusiyasının 58-ci maddəsi müəyyən edirdi ki, ictimai faydalı fəaliyyət sahəsində vicdanla işləmək, əmək intizamına əmək etmək Azərbaycan SSR-in əmək qabiliyyətli hər bir vətəndaşının borcu və şərəf işidir. İctimai faydalı əməkdən boyun qaçırmaq sosializm cəmiyyəti prinsipləri ilə bir yerə sığmır [4, s.21]. Qeyd olunmalıdır ki, verilən təriflərdə vurğu məhz işləmək vəzifəsinin mənəvi xarakterinin üzərinə salınırdı. Bu, o səbəbdən baş vermişdi ki, SSRİ hələ 1956-cı il iyunun 4-də BƏT-nin «Məcburi və yaxud icbari əmək haqqında» 29 nömrəli Konvensiyasını (1930), 1976-cı ildə isə 1966-cı il dekabrın 16-da qəbul edilmiş İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktı təsdiqləmişdi.

Azərbaycan SSR-nin 1978-ci il Konstitusiyasında əmək hüququnun müəyyən edilməsi ölkə hüquqşünaslığında əmək hüququ nəzəriyyəsinin sonrakı inkişafına təsir etdi. Əməyin belə geniş xarakteristikası sosializimdə əmək azadlığı prinsipini əks etdirirdi. Lakin seçim imkanlarının sadalanması (peşə, məşğuliyyət növü və iş seçmək hüququ) o qədər də uğurlu deyildi. Belə ki, burada əmək funksiyasının müəyyənliyinin müxtəlif səviyyələri müxtəlif mənalı terminlərdə istifadə olunurdu. Konstitusiyanın bu maddəsi insan hüquqları üzrə beynəlxalq-hüquqi sənədlərdə əmək hüququnun şərhinə yaxın idi. Belə ki, İnsan hüquqları haqqında Ümumi Bəyənnamənin 23-cü maddəsində göstərilirdi ki, hər bir şəxsin əmək, sərbəst iş yeri seçmək, ədalətli və münasib əmək şəraiti və işsizlikdən müdafiə hüququ var [8, s.6]. BMT-nin Baş Assambleyası tərəfindən 16 dekabr 1966-cı ildə qəbul olunmuş və 18 sentyabr 1973-cü ildə qüvvəyə minmiş İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 6-cı maddəsinin birinci hissəsində deyilir ki, bu Paktda iştirak edən dövlətlər hər kəsin azad seçdiyi və ya könüllü razılaşdığı işlə həyatını təmin etmək hüququnu əhatə edən əmək hüququnu tanıyırlar və bu hüququn təmin olunması üçün müvafiq addımlar atacaqlar [7, s.5].

18 oktyabr 1961-ci ildə qəbul olunmuş və 1965-ci ildə qüvvəyə minmiş Avropa Sosial Xartiyasında qeyd edilir ki, hər bir insan sərbəst şəkildə seçdiyi ixtisas üzrə öz zəhməti ilə yaşayış üçün qazanc əldə etmək imkanına malik

olmalıdır [2, s.3].

Avropa Sosial Xartiyasının 2-ci hissəsinin birinci maddəsi əmək hüququna həsr olunmuşdur. Onda dövlətlərin əmək hüququnun səmərəli həyata keçirilməsini təmin etmək üzrə öhdəlikləri ifadə olunur:

1) tam məşğulluğun əldə olunması məqsədilə mümkün qədər yüksək və sabit məşğulluq səviyyəsinə nail olunmasını və onun saxlanılmasını öz əsas məqsəd və öhdəliklərindən biri kimi qəbul etmək;

2) işçinin sərbəst seçdiyi iş vasitəsilə öz yaşayışı üçün qazanc əldə etmək hüququnu səmərəli qorumaq:

3) bütün işçilər üçün pulsuz məşğulluq xidmətlərini yaratmaq və ya saxlamaq;

4) müvafiq peşə yönümünü, hazırlığı və bərpasını təmin etmək və ya inkişaf etdirmək [2, s.3].

Azərbaycan SSR-nin 1978-ci il Konstitusiyasının 38-ci maddəsindən fərqli olaraq Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixli Konstitusiyasının 35-ci maddəsində əmək hüququ kifayət qədər dəqiq təsbit olunmuşdur. Burada söhbət təminatlı iş almaqdan deyil, öz əmək qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququndan gedir. Bundan başqa, seçim azadlığı ictimai tələbatların nəzərə alınmasının zəruriliyi ilə məhdudlaşmır. Beləliklə, aydındır ki, AR Konstitusiyasında əmək hüququnun şərhi Azərbaycan SSR-nin 1978-ci il Konstitusiyasının 38-ci maddəsində göstərilən müddəadan fərqli olaraq əməyin azadlığı prinsipinə daha çox uyğundur. Lakin qeyd etmək lazımdır ki, ilk nəzərdə əmək hüququnun realizəsinin təminatının səviyyəsi aşağı düşmüşdü. Belə ki, dövlət hər bir vətəndaşa işin verilməsi ilə bağlı təminat vermir. Bunun əsasında vətəndaşların vəziyyətinin pisləşməsi nəticəsinə gəlmək olar. Lakin bizə belə gəlir ki, burada birmənalı nəticəyə gəlmək olmaz. Həqiqətən də vətəndaşların vəziyyətində stabillik o qədər də möhkəm deyildi. Belə ki, işsizlik onunla birgə isə is yerini itirmək təhlükəsi meydana gəlmişdi. Lakin stabiliyin yerini o qədər də ziddiyyətsiz olmayan azadlıq tutdu.

Ancaq əməyin tam azadlığı şəraitində azad əmək hüquq münasibətləri haqqında söhbət gedə bilər. Bu zaman iş yerinin saxlanması təminatı yüksək ixtisaslığa şərait yaradacaq, işin itirildiyi halda isə dövlət köməyi olacaq. Bu planda işsizlikdən müdafiə olunmaq hüququnun təsbiti əmək hüququnun anlayışına daha çox şüar yanaşmasından üstündür.

AR-in 1995-ci il Konstitusiyası əmək hüququnun SSRİ-də hökmran olmuş konsepsiyasından imtina edərək onun tərifini İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın vurğunun əməyin azad və könüllü xarakterinin üzərinə salındığı 6-cı maddəsinə əsaslanmağa başlamışdır. Yeni ifadə özünün əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququnu, hər kəsin təhlükəsiz və

sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququnu, eləcə də işsizlikdən müdafiə hüququnu ehtiva edir. AR Konstitusiyasının 35-ci maddəsi əmək azadlığını, həmçinin məcburi əməyin qadağan edilməsi prinsipini təsbit etmişdir.

V.S.İvanenko göstərir ki, əmək azaddır, buna görə də dövlət onun təmin edilməsi üzrə öhdəliklərdən azaddır [24, s.18].

M.V.Baqlay hesab edir ki, əmək hüququ kiminsə bütün tələb edənlərə iş vermək vəzifəsini bildirmir. Bazar iqtisadiyyatında dövlət xüsusi sahibkara belə vəzifə tapşırmaq və ya bu öhdəliyi öz üzərinə götürmək iqtidarında deyil. Çünki o, artıq bütün müəssisələri idarə etmir [15, s.230].

Qeyd etmək lazımdır ki, xarici dövlətlərin konstitusiyalarında nəzərdən keçirilən məsələyə dair fərqli yanaşmalar mövcuddur.

Bir sıra dövlətlər əmək hüququnun və işləmək vəzifəsinin vahidliyini birbaşa təsbit edirlər. Belə ki, 1976-cı il 2 aprel tarixli Portuqaliya Konstitusiyası 58-ci maddədə hər kəsin əmək hüququnu bəyan edir və müəyyən edir ki, işləmək vəzifəsi əmək hüququndan ayrılmazdır. Yalnız əmək qabiliyyətini qismən, yaxud tamamilə itirmiş şəxslər bu qaydadan istisna təşkil edirlər. Bundan başqa, əmək hüququnun realizəsinin dövlət təminatları təsbit olunur:

1) tam məşğulluq siyasətinin yeridilməsi;

2) hər hansı vəzifənin, işin və peşənin verilməsi üçün cinsi əsas götürən qadağan və məhdudiyyətlər olmadan peşə, yaxud əmək fəaliyyəti növü seçimində imkan bərabərliyi;

3) zəhmətkeşlərin mədəni, texniki və peşə hazırlığı.

Fransa Respublikasının 1946-cı il Konstitusiyasının preambulasında göstərilir ki, hər kəs işləməyə borcludur və məşğuliyyət almaq hüququna malikdir. 1978-ci il dekabrın 29-da qüvvəyə minmiş İspaniya Konstitusiyasının 35-ci maddəsinə görə, bütün ispanlar işləməyə borcludur və əmək hüququna malikdir.

Bununla əlaqədar əmək hüququnun və işləmək vəzifəsinin vahidliyi konsepsiyasını sosialist konsepsiyası adlandıran Y.R.Tixonova ilə razılaşmaq olmaz [41, s.3]. Aydındır ki, bəzi «kapitalist» ölkələri də bu konsepsiyanı əsas götürür.

Ayrı-ayrı ölkələr, sadəcə, əmək hüququna təminat verirlər (Lüksemburq Konstitusiyasının 11-ci maddəsi, Finlandiyanın idarəetmə formasının 6-cı paraqrafı, Danimarka Konstitusiyasının 75-ci bəndi, Yunanıstan Konstitusiyasının 22-ci maddəsi və s.).

Digər dövlətlər konstitusiyalarda əməyin azadlığı və əməyə məcburetmənin qadağan edilməsi prinsipinin təsbiti ilə kifayətlənirlər (Belçika Konstitusiyasının 23-cü maddəsinin 1-ci bəndi, Avstriyanın Əsas Qanununun 18-ci maddəsi, AFR-in Əsas Qanununun 12-ci maddəsi).

Əməyin azadlığı, birincisi, hər kəsin azad surətdə seçdiyi, yaxud azad surətdə razılaşdığı əmək hüququnu, ikincisi, özünün əmək qabiliyyəti barəsində sərəncam vermək, peşə və fəaliyyət növü seçmək hüququnu ehtiva edir. Əvvəlcə insan işləyib-işləməyəcəyini seçir, sonra əgər işləməyə hazırdırsa, ona iş təqdim olunur, yaxud işə düzəlmədə yardım göstərilir. Bu, belə bir nəticəyə gəlməyə tam əsas verir ki, bazar münasibətlərinə keçidlə əlaqədar əmək hüququnun ifadəsi keyfiyyət dəyişikliklərinə uğramışdır.

İndi əmək hüququnu yalnız bərabər əmək hüququ, azad əmək hüququ kimi izah etmək olar. Hal-hazırda əmək hüququ ümumilik xassəsini itirmişdir, çünki indən belə dövlət tərəfindən ona təminat verilmir. İndi hər bir əmək qabiliyyətli vətəndaşın əmək hüququna dövlətin ona işi real surətdə təqdim etmək vəzifəsi uyğun gəlmir. “Məşğulluq haqqında» Azərbaycan Respublikasının 29 iyun 2018-ci il tarixli Qanununun 10-cu maddəsində bəyan olunur ki, dövlət hər bir şəxs məşğulluq növünün, o cümlədən müxtəlif rejimli işin sərbəst seçilməsinə təminat verir [10, s.7]. Belə ifadə böyük şübhələr doğurur. Çünki AR Konstitusiyası vətəndaşların belə hüququnu nəzərdə tutmur. Hər bir vətəndaş işsizlikdən müdafiə hüququna malikdir ki, bu da dövlətin ona məhz özünün iddia etdiyi işi təqdim etmək vəzifəsini ifadə etmir.

Belə bir nəticəyə gəlmək olar ki, əgər ölkəmizdə bazar iqtisadiyyatının formalaşması prosesi başlanana qədər əmək hüququna əmək müqaviləsi bağlanana qədər təminat verilirdisə, indi ona artıq əmək müqaviləsi bağlandıqdan sonra işçinin ona işəgötürənlə şərtləşdirilmiş işin təqdim edilməsi hüququ şəklində təminat verilir.

Əgər müəyyən subyektiv hüquqa müvafiq hüquqi vəzifə uyğun gəlmirsə, belə hüquq azadlığa transformasiya olunur. Sxematik cəhətdən belə mülahizələri aşağıdakı kimi təsvir etmək olar: əmək hüququ-əmək azadlığı.

Eyni zamanda, biz əmək azadlığının və əmək hüququnun qarşılıqlı əlaqəsini layiqincə qiymətləndirməyə bilmərik. «Bazar iqtisadiyyatına keçildiyi müasir şəraitdə əmək azadlığı və əmək hüququ bir-birini qarşılıqlı surətdə tamamlayan və əmək qabiliyyətli vətəndaşların həyat və fəaliyyətinin hüquqi əsaslarını müəyyən edən obyektiv zəruri kateqoriyalar kimi nəzərdən keçirilməlidir» [44, s.28].

Biz V.V.Fedinin belə bir fikri ilə razılaşırıq ki, bazar iqtisadıyyatının formalaşması və inkişafı zamanı əmək hüququ vətəndaş cəmiyyəti şəraitində hüquqi dövlət ideyasına uyğundur: həm hüquqi dövlət, həm də real əmək hüququ cəmiyyətin can atmalı olduğu ali məqsədlər, etalonlardır. Öz realizəsinə məcburetməni nəzərdə tutmayan həqiqi əmək hüququ yalnız hüquqi dövlətin mövcud olduğu yerdə mümkündür [45, s.150-151].

Hələ keçən əsrin 80-ci illərinin əmək hüquq ədəbiyyatında göstərilirdi ki, «insanın əmək hüququ – bu, insanın əməyə olan tələbatını əks etdirən, həm

insanın cəmiyyətə, dövlətə tələbləri, ideyalar formasında, həm də bu tələbatların təmin edilməsi üzrə qanunvericiliklə təsbit edilmiş imkanlar formasında mövcud olan kateqoriyadır» [23, s.19].

Vətəndaşların real həyatda istifadə etdikləri hüquqların və azadlıqların məcmusu onların hüquqi vəziyyətini (statusunu) müəyyən edirlər. Dövlətdə şəxsiyyətin hüquqi vəziyyətini xarakterizə edən, vətəndaşların cəmiyyətdə köklü mənafelərini ifadə edən və bunun da nəticəsində konstitusiyada təsbit edilən hüquqlar, azadlıqlar və vəzifələr hüquq ədəbiyyatında əsas hüquqlar, azadlıqlar və vəzifələr adı ilə adlandırılır ki, bu da ümumən qəbul olunmuşdur [20, s.12]. Bu mülahizənin ötən əsrin 70-ci illərinə aid olmasına baxmayaraq, o, indi də öz aktuallığını saxlamaqdadır.

Konstitusion hüquqlar, azadlıqlar və vəzifələr ilk növbədə öz məzmununa görə əsas hüquqlar, azadlıqlar və vəzifələr hesab olunurlar, çünki onlar ən mühüm prinsipial münasibətləri tənzimləyir, cəmiyyətlə onun üzvləri arasında qarşılıqlı əlaqələri nizamlayır, dövlətlə onun vətəndaşları arasındakı münasibətlərin tənzimlənməsində başlıca rol oynamaqla yanaşı, insanın cəmiyyətdə hüquqi vəziyyətinin əsas olduğunu təsdiqləyir. Digər konstitusion hüquqlara analoji surətdə əmək hüququ aşağıdakı keyfiyyətdə çıxış edir:

1) sosial mənşəyindən, irqindən və ya etnik mənsubiyyətindən, cinsindən, təhsilindən, əmlak vəziyyətindən və digər hallardan asılı olmayaraq, bütün vətəndaşlar ümumi əmək hüququna malikdir;

2) dövlət bütün vətəndaşlara öz hüquqlarını həyata keçirmələri üçün bərabər hüquqi imkanlar verilməsinə təminat verir;

3) hüquqların realizəsinə dövlət tərəfindən təminat verilir.

Konstitusion əmək hüququ əsas hüquqların digər xassələri ilə də səciyyələndirilir. Konstitusion əmək hüququ vətəndaşların bütün əmək hüquqlarının hüquqi bazasını təşkil edir. Həmin normaların böyük əksəriyyəti cari qanunvericilik aktlarında təsbit edilmişdir. Lakin cari qanunvericilik aktları ilə müqayisədə konstitusion əmək hüququ ən yüksək hüquqi qüvvəyə malikdir. Deməli, vətəndaşların cari qanunvericilik aktlarında təsbit edilmiş bütün əmək hüquqları onların konstitusion əmək hüququna zidd ola bilməz.

Tarixi planda, eləcə də hazırda hüquq elmində konstitusion əmək hüququnun hüquqi təbiəti haqqında müxtəlif fikirlər mövcuddur. Əmək hüququ haqqında hüquq qabiliyyətinin elementi və subyektiv hüquq barəsində olduğu kimi danışılır. Bu iki əsas nöqteyi-nəzər öz məzmununa və əsaslandırılmasına görə eynilik təşkil etmirlər. Birinci halda müəlliflər əsas hüququ ümumi hüquq qabiliyyətinin [12, s.177-178; 18, s.13; 43, s.56], mülki hüquq qabiliyyətinin [27, s.89] və yaxud əmək hüquq subyektliyinin [33, s.43] elementlərinə aid edirlər.

Əmək hüququnu subyektiv hüququn keyfiyyəti olduğunu hesab edən müəlliflər təsdiq edirlər ki, vətəndaşların əmək hüququ hüquq münasibəti

xaricində mövcuddur [21, s.14]. Digər müəlliflərin isə fikrincə, əmək hüququ mütləq xarakterli münasibətlərində [28, s.63], yaxud da xüsusi, daha ümumi hüquq münasibətlərində mövcuddur [14, s.114]. Bəzi müəlliflər belə hesab edirlər ki, əmək hüququ yalnız dövlət hüququ xətti ilə və hüquq qabiliyyəti elementi üzrə – əmək və kolxoz hüququ xətti ilə subyektiv hüquqdur [16, s.111].

Onu da qeyd etmək istərdik ki, «subyektiv hüquq», «obyektiv hüquq» kimi hüquqi kateqoriyalar hüquq nəzəriyyəsində kifayət qədər ətraflı işlənmişdir. Subyektiv hüququn məzmununun işlənib hazırlanmasında təqdirəlayiq xidmət mülki hüquq sahəsində görkəmli alim S.N.Bratusa məxsusdur. Sovet hüquq ədəbiyyatında məhz S.N.Bratus ilk dəfə subyektiv hüququ səlahiyyətli (müvəkkil edilmiş) şəxsin özünün mümkün və ya icazə verilən davranış ölçüsü kimi müəyyən etmişdir [18, s.7]. M.F.Məlikova göstərir ki, subyektiv hüquq şəxsin mümkün ola bilən davranışının dövlət tərəfindən müəyyən edilən və təmin olunan ölçüsü olub, müəyyən hərəkətləri etməkdən və digər şəxsdən müəyyən hərəkətləri yerinə yetirməyi, yaxud onları etməkdən çəkinməni tələb etməkdən ibarətdir [9].

V.T.Vitruk «Şəxsiyyətin hüquqi vəziyyətinin ümumi nəzəriyyəsi» adlı monoqrafik tədqiqatında subyektiv hüquqa belə tərif verir: «Subyektiv hüquq şəxsiyyətin öz tələbatlarını və mənafelərini təmin etmək üçün maddi, mənəvi və şəxsi nemət və sərvətlərdən istifadə məqsədilə obyektiv hüquq normaları (konstitusiya, qanunlar) ilə müəyən olunmuş sosial baxımdan şərtlənən və təminatlı mümkün davranış ölçüsüdür» [19, s.233].

Subyektiv hüququn tərifi digər müəlliflər, məsələn, N.Q.Aleksandrov, S.S.Alekseyev və N.İ.Matuzov tərəfindən daha da təkmilləşdirilmişdir. M.S.Stroqoviçin daha uğurlu tərif verdiyini nəzərə alaraq, bu tədqiqat işində həmin məsələ üzərində ətraflı dayanmağa lüzum görmürük.

M.S.Stroqoviçə görə, «şəxsin subyektiv hüququ hüquq normasında ifadə olunan və təsbit edilmiş aşağıdakı imkanların təzahürü deməkdir:

a) müəyyən sosial nemətdən istifadə etmək imkanı;

b) müəyyən hərəkətləri etmək və digər şəxslərdən müvafiq hərəkətlərin edilməsini tələb etmək səlahiyyəti;

c) hüquq norması ilə müəyyən edilmiş hədlərdə davranış və hərəkətlər etmək azadlığı [39, s.205].

Yuxarıdakı mülahizələrə və hüquq elmində birmənalı həll edilməyən digər fikirlərə uyğun olaraq məhz subyektiv hüquqlar vətəndaşa onun üçün qanunla təsbit edildikləri üçün məxsusdurlar. Belə məxsusluq hüquq münasibətlərindən asılı deyil. Vətəndaşlar belə hüquqlara malikdirlər, yaxud onların sahibidirlər, hüquq münasibətləri isə bu və ya digər hüquqi faktın mövcud olması nəticəsində yaranır və bu münasibətlər vətəndaşların öz hüquqlarını həyata keçirmələrinin realizə formasıdır. Belə realizə formaları vətəndaşlara

hüquq münasibətlərindən asılı olmayaraq məxsus olur. Fikrimizcə, alimlərin mülahizəsinə uyğun olaraq subyektiv hüququn, ancaq hüquq münasibətlərinin elementi olması [46, s.16] tam mənada düzgün hesab oluna bilməz. Belə təsəvvür subyektiv hüquqlarda və mülki hüquqda bir çox hallarda, məsələn, nisbi hüquqlarda düzgün hesab oluna bilər.

Subyektiv hüquqlar hüquq qabiliyyətinin tərkib hissəsi deyil və o, ancaq hüquq münasibətlərinin elementi hesab oluna bilməz. Subyektiv hüquqlar hüquq münasibətindən kənarda mövcud olan, lakin hüquq münasibətində realizə olunan, həyata keçirilən hüquqlar, real hüquqlar kimi mövcud ola bilərlər.

Şəxsiyyətin subyektiv əmək hüququ öz təbiətinə görə element qismində ayrıca hüquq münasibəti çərçivəsinə sığmır. Bu hüququn məzmununun açıqlanması üçün «hüquq qabiliyyəti», «vətəndaşın hüquqi statusu» kimi anlayışlar üzərində dayanmaq zəruridir.

Hüquq qabiliyyəti ilə bağlı elmi ədəbiyyatda müxtəlif fikirlər mövcuddur. Onlardan bəzilərini qısaca da olsa nəzərdən keçirək. Belə ki, N.İ.Matuzovun fikrincə, hüquq qabiliyyəti «hüquq deyil, qabiliyyətdir, xassədir, həmişə hər hansı hüquqdan fərqlənir» [31, s.21].

Bir sıra digər alimlər fərqli mövqe tuturlar, belə ki, S.S.Alekseyev özünün məşhur «Hüquq nəzəriyyəsinin problemləri» əsərində yazırdı ki, hüquq qabiliyyəti hüququ ifadə edən hüquqi imkandır [13, s.586].

R.A.Göyüşovun fikrincə, hüquq qabiliyyəti hələ subyektiv hüquq demək deyildir, məhz subyektiv hüquq əldə etmənin qanunla tanınmış imkanıdır [6, s.92].

Ə.B.Hacıbəyli qeyd edir ki, hüquq qabiliyyəti – qanunla nəzərdə tutulan və yol verilən hüquq və vəzifələrin subyekti olmaq qabiliyyətidir. Hüquq qabiliyyəti konkret hüquq və vəzifələr əldə etməyin və onları gerçəkləşdirməyin zəruri ümumi ilkin şərtidir. Yaşdan, sağlamlıq durumundan, sair hallardan asılı olmayaraq vətəndaşlar bütün həyatları boyu hüquq qabiliyyətinə sahib olurlar. Bu, o deməkdir ki, hüquq qabiliyyəti insanın ayrılmaz hüququdur [3, s.16].

Bəzi müəlliflər bu anlayışda hüquq sözunu əsas götürərək hüquq qabiliyyətini xüsusi subyektiv hüquq hesab edərək onu «hüquqa olan hüquq» kimi xarakterizə edirlər (O.S.İoffe). Digər müəlliflər isə qabiliyyət sözunu əsas götürərək hüquq qabiliyyətini hüququn subyekti ola bilmək qabiliyyəti kimi xarakterizə edirlər. Məsələn, S.S.Allahverdiyev Mülki hüquq dərsliyində hüquq qabiliyyətini hüquq və vəzifələrə malik olmaq qabiliyyəti kimi göstərərək ona vətəndaşların hüquq münasibətlərinin iştirakçısı olmasına hüquqi imkan kimi qiymət verir [1].

B.K.Beqiçev hüquq qabiliyyətinə hər kəs üçün bərabər hüquqlara malik olmaq qabiliyyəti kimi anlayış vermişdir [16, s.39].

Göründüyü kimi, həmin müəllif hüquq qabiliyyətini ilk növbədə «bərabərliklə xarakterizə olunan qabiliyyət» kimi göstərir. N.Q.Aleksandrov hüquq qabiliyyətini şəxsin qanunla nəzərdə tutulan və hamı üçün eyni və sabit olan hüquq və vəzifələrin daşıyıcısı olmaq qabiliyyəti kimi xarakterizə etmişdir [12, s.173].

«Hüquq qabiliyyəti» – bu, ancaq hüquqa malik olmaq qabiliyyətidir. O, artıq mövcud olan hüquq münasibətinə sahib olmaqdan ibarət deyil. Hüquq qabiliyyəti nəinki hüquq münasibətindən əvvəl gəlir, həm də vətəndaş tərəfindən subyektiv hüquqlara sahib olmanı qabaqlayır. Yaxud hüquq qabiliyyətinə malik olmayan şəxs hüquq münasibətinin subyekti ola bilməz. Fəaliyyət qabiliyyəti olmayan şəxs isə hüquq münasibətinin subyekti qismində çıxış edə bilməz.

Eyni zamanda hüquqi statusun müəyyən edilməsinə elmi yanaşmaların birmənalı olmadığına diqqət yetirmək istərdik. Belə ki, A.Q.Berejkov hüquqi status dedikdə, şəxsiyyətin qanunvericiliklə müəyyən edilmiş və vəhdət halında götürülmüş hüquq, azadlıq və vəzifələrini başa düşür [32, s.475-479].

İ.A.İvannikov hesab edir ki, hüquqi status konstitusiya və dövlətin digər aktları ilə tanınan insanın ilkin, ayrılmaz hüquq və vəzifələrinin, dövlət orqanlarının və vəzifəli şəxslərinin səlahiyyətlərinin məcmusudur [25, s.67].

Göründüyü kimi, yuxarıda qeyd olunan alimlər hüquqi statusun dar yozumuna söykənərək, onu şəxsiyyətin əsas hüquq və vəzifələrinin məcmusu kimi müəyyən edirlər.

Bu mövqeyi bir sıra başqa alimlər, məsələn, A.A.Bezuqlov və S.A.Soldatov bölüşərək, insanın və vətəndaşın konstitusion-hüquqi statusunu şəxsiyyətin konstitusiyada təsbitini tapmış hüquqlarının, azadlıqlarının və vəzifələrinin sistemi kimi müəyyən edirlər [17, s.359].

Z.A.Əsgərov yazır: «Şəxsiyyətin hüquqi statusu kifayət qədər geniş anlayışdır. Buraya insanın həyatda əmələ gələn və müxtəlif amillərin təsiri altında dəyişən, inkişaf edən bütün hüquq və azadlıqları daxildir» [5, s.118].

Y.A.Lukaşova da təxminən bu mövqeyi tutur. «Dövlət və fərd arasında yaranan mürəkkəb əlaqələr və insanların bir-biri ilə qarşılıqlı münasibətləri dövlət tərəfindən hüquqi formada-insanın və vətəndaşın hüquqi statusunu təşkil edən hüquqlar, azadlıqlar və vəzifələr formasında təsbit olunur… İnsanın və vətəndaşın hüquqi statusu dövlət tərəfindən konstitusiyada və digər normativ hüquqi aktlarda təsbitini tapan hüquq və vəzifələr sistemi kimi xarakterizə oluna bilər» [36, s.91-96].

Lakin hüquq elmində hüquqi statusun müəyyən edilməsinə digər yanaşmalar da mövcuddur.

Belə ki, M.S.Stroqoviç vaxtilə yazırdı ki, hüquqi status hüquqlardan, hüquqi vəzifələrdən, hüquqi təminatlardan və hüquqi məsuliyyətdən ibarətdir [40, s.199]. S.M.Şaxray, A.A.Klişas hesab edirlər ki, əsas hüquq, azadlıq və

vəzifələrdən başqa, vətəndaşların hüquqi statusunun əsaslarının məzmununa onun söykəndiyi prinsiplər də daxilidir [47, s.224].

Bizim fikrimizcə, vətəndaşın hüquqi statusu – bu, qanuna uyğun olaraq ona məxsus olan hüquqların və üzərinə düşən vəzifələrin məcmusudur. Geniş mənada hüquqi status dedikdə, şəxsiyyətin cəmiyyətdəki vəziyyətinin hüquqi cəhətdən təsbit edilməsi başa düşülür. Bütün hallar bu və ya digər dərəcədə insanın cəmiyyətdəki real vəziyyətini hüquqi baxımdan müəyyən edir, səciyyələndirir və qaydaya salır ki, bu da hüquqi statusun məzmununu təşkil edir.

Şəxsiyyətin hüquqi statusu aşağıdakı komponentlərdən təşəkkül tapır:

1) şəxsiyyətin hüquqları;

2) şəxsiyyətin hüquqi vəzifələri;

3) şəxsiyyətin hüquqlarının hüquqi təminatları;

4) şəxsiyyətin öz vəzifələrinin icrasına görə hüquqi məsuliyyəti.

Lakin N.V.Vitruk özünün «Şəxsiyyətin hüquqi vəziyyətinin ümumi nəzəriyyəsi» adlı ən yeni monoqrafik tədqiqatında daha da irəli gedərək, şəxsiyyətin hüquqi statusunun aşağıdakı məzmununu ifadə edir: «Hüquqi statusun tərkibinə şəxsiyyətin qanunla təsbitini tapmış hüquq və azadlıqları, qanuni mənafeləri və vəzifələri daxildir. Hüquqlar, azadlıqlar və vəzifələr şəxsiyyətin hüquqi statusunun əsas, qanuni mənafelər isə əlavə, törəmə struktur elementləridir» [19, s.224].

Subyektiv hüquqlar qanunlarda, hüquq normalarında, yəni obyektiv hüquqda ifadə olunmuş, təsbit edilmişdir. «Subyektiv hüquq»un mənası ondan ibarətdir ki, o, səlahiyyət mənasında hüquqdur. Bu da öz növbəsində subyektə məxsusdur.

Alimlərin bir qisminin mövqeyinə görə, ümumiyyətlə, subyektiv hüquqlar, o cümlədən işçilərin subyektiv hüquqları yalnız real hüquq münasibəti mövcud olduqda yaranır. Alimlərin digər qismi belə hesab edir ki, vətəndaşların subyektiv hüquqları artıq onların bu və ya digər qanunvericilik aktında müəyyən (təsbit) edilməsi anından etibarən mövcuddur. Bu mövqeyə söykənən alimlər hesab edirlər, əmək sahəsinə aid konstitusion hüquqların əksəriyyəti subyektiv xarakterlidir. Biz bu mövqeyi bölüşürük.

Hələ XX əsrin 60-cı illərində bir sıra müəlliflər belə hesab edirdilər ki, vətəndaşların konstitusion hüquqları, o cümlədən əmək hüququ özünün realizə olunmasınadək ümumi hüquq münasibətləri çərçivəsində olurlar, sonradan bu hüquqların həyata keçirildiyi zaman konkret hüquq münasibətlərinə keçirlər [38, s.8]. Yarım əsr bundan əvvəl deyilmiş bu fikirlə biz də razılaşırıq.

Birincisi, əmək hüququnun hüquqi təbiətinin başa düşülməsinə belə yanaşmanın nəinki nəzəri, həm də böyük praktiki əhəmiyyəti vardır. Subyektiv hüquq – bu, subyektin hüququdur. O, səlahiyyətli şəxsə öz maraqlarını

qanunla müəyyən edilmiş həddə təmin etmək məqsədilə məxsusdur. Vətəndaşların konstitusion hüquqları subyektiv hüquqların bütün cəhətlərinə və əlamətlərinə malikdirlər.

İkincisi, əmək hüququ – bu, hər hansı təminatsız səlahiyyət deyil, hüquq münasibətləri çərçivəsində mövcud olan hüquqdur. Ancaq hüquq münasibətləri kateqoriyası vasitəsi ilə bu konstitusion hüququn hüquqi təbiətini və sosial mahiyyətini açmaq olar.

Yuxarıda ifadə olunanlar əmək hüququnu vətəndaşların dövlət tərəfindən təmin edilmiş və təminat verilən, qanunvericilikdə təsbit edilmiş imkanı kimi müəyyən etməyə imkan verir. Bu hüquq ümumi halda əmək fəaliyyəti sahəsində vətəndaşların özünün seçdiyi əmək müqaviləsi üzrə muzdlu işçi qismində və yaxud mülki-hüquqi müqavilələr üzrə müstəqil olaraq işlə məşğul olmasına imkan verir.

**ƏDƏBİYYAT**


1. Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüququ: Dərslik. - Bakı: Digesta, - 2003, - 944 s.
2. Avropa Sosial Xartiyası. - Bakı: Qanun, - 2007, - 36 s.
3. Azərbaycan Respublikası Mülki Məcəlləsinin Elmi-praktik kommentariyası. 5 cilddə, I cild/Məsul redaktor B.C.Kərimov. - Bakı: Hüquq Yayın evi, - 2017, - 896 s.
4. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanunu). - Bakı: Azərnəşr, - 1990 , - 72 s.
5. Əsgərov Z.A. Konstitusiya hüququ: Dərslik. - Bakı: Bakı Universiteti nəşriyyatı, - 2011, 760 s.
6. Göyüşov R.A., Bayramov R.Ə., Yusifov Ş.B. Mülki hüquq (Ümumi hissə). Mühazirələr toplusu: Dərs vəsaiti / R.A.Göyüşovun məsul redaktorluğu ilə. - Bakı: Qanun, - 2013, - 492 s.
7. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt. - Bakı: Qanun, - 2006, - 16 s.
8. İnsan hüquqları haqqında Ümumi Bəyannamə. - Bakı: Qanun, - 2006, - 8 s.
9. Məlikova M.F. Hüquq nəzəriyyəsi: Dərslik. - Bakı: Elm və təhsil, - 2023, - 452 s.
10. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu/Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, - 2018, - № 8, maddə 1669
11. Sovet Sosialist Respublikaları İttifaqının Konstitusiyası (Əsas Qanunu). - Bakı: Azərnəşr, - 1983, - 56 s.
12. Александров Н.Г. Трудовое правоотношение: Монография. - Москва: Проспект, - 2008, - 344 с.
13. Алексеев С.С. Общая теория права: Учебник. - Москва: Проспект, - 2009, - 576 с.
14. Алексеев С.С. Общая теория права: Учебник. - Москва: Юрид.лит., - 1982, - 678 с.
15. Баглай М.В. Конституционное право Российской Федерации: Учебник. - Москва: Норма: ИНФРА-М., - 2001, - 800 с.
16. Бегичев Б.Н. Трудовая правоспособность советских граждан: Монография. - Москва: Юрид.лит., - 1972, - 248 с.
17. Безуглов А.А., Солдатов С.А. Конституционное право Российской Федерации: Учебник для вузов. - Москва, - 2001
18. Братусь С.Н. Субъекты гражданского права: Монография. - Москва: Госюриздат, - 1950, - 269 с.
19. Витрук Н.В. Общая теория правового положения личности: Монография. - Москва: Норма, - 2008, - 448 с.

20. Воеводин Л.Д. Конституционные права и обязанности советских граждан: Монография. - Москва: Изд-во Моск. Ун-та, - 1972, - 300 с.
21. Воеводин Л.Д. Теоретические вопросы правового положения личности в советском общенародном государстве // Советское государство и право, - 1963, - № 2, - с.14
22. Егоров В.В. Право на труд рабочих и служащих: теория и практика: Монография. - Москва: Наука, - 1986
23. Егоров В.В. Содержание и гарантии права на труд рабочих и служащих в СССР: Монография. - Москва, - 1981
24. Иваненко В.С. Всеобщая декларация прав человека и Конституция Российской Федерации//Правоведение, - 1998, - № 4, - с.18
25. Иванников И.А.Толковый словарь по теории права. - Ростов н/Д: Феникс, - 2006
26. Иванов С.А. Социальное назначение советского трудового права, его функции, факторы и особенности развития / Иванов С.А., Лившиц Р.З., Орловский Ю.П. Советское трудовое право: вопросы теории: Монография. - Москва: Наука, - 1978, - 367 с.
27. Иоффе О.С. Советское гражданское право. Курс лекций. - Ленинград: ЛГУ, - 1958
28. Келина С.Г. Об уголовно-правовой защите политических и трудовых прав граждан // Советское государство и право, - 1983, - № 8
29. Кучинский Ю. Права человека и классовые права: Монография. - Москва: Прогресс, - 1981
30. Маркс К., Энгельс Ф. Соч. т.20
31. Матузов Н.И. Социалистическая демократия и субъективные права граждан // Советское государство и право, - 1972, - № 6, - с.19-26
32. Общая теория государства и права. Академический курс в 3-х т. Т.1. Государство / Отв. ред. М.Н.Марченко. - Москва: Норма, - 2007, - 568 с.
33. Орловский Ю.П. Труд молодежи в СССР: Монография. - Москва: Наука, - 1974
34. Пашерстник А.Е. Право на труд: Монография. - Москва, - 1951, - 231 с.
35. Пашков А.С., Хрусталев Б.Ф.Обязанность трудиться по советскому праву: Монография. - Москва, - 1972, - 217 с.
36. Права человека: Учебник для вузов /Отв.ред. Е.А.Лукашева. - Москва: НОРМА-ИНФРА-М, - 2001, - 579 с.
37. Сагаев С.М. Конституционное право на труд граждан СССР: Монография. - Москва, - 1985
38. Смирнов О.В. Природа и сущность права на труд в СССР: Монография. - Москва: Юрид.лит., - 1964, - 210 с.
39. Строгович М.С. Избранные труды. Т.1. - Москва: Наука, - 1990
40. Строгович М.С. Правовое положение личности в СССР/Конституция общенародного государства. Вопросы теории. - Москва: Юрид.лит., - 1979
41. Тихонова Я.Р. Понятие и законодательное закрепление права на труд. - Москва, - 1994
42. Толкунова В.Н. Право на труд по конституции СССР / Труды Всесоюзного юридического заочного Института. - Москва, - Т.59, - 1978
43. Толстой Ю.К. К теории правоотношений: Монография. -Ленинград: ЛГУ, - 1981, - 311 с.
44. Трудовое право: Учебник/Под ред. О.В.Смирнова. - Москва: Проспект, - 2003, - 528 с.
45. Федин В.В. Юридический статус работника как субъекта трудового права: Монография. - Москва: Проспект, - 2005, - 240 с.
46. Чечот Д.М. Субъективное право и формы его защиты: Монография. - Ленинград: ЛГУ, - 1968, - 331 с.
47. Шахрай С.М., Клишас А.А. Конституционное право Российской Федерации: Учебник. - Москва: Олма Медиа Групп, - 2015, - 656 с.

## СУЩНОСТЬ ТРУДОВОГО ПРАВА

**У.А.АКПЕРЛИ**

### РЕЗЮМЕ

В статье исследуется сущность трудового права как одного из социально-экономических прав граждан и отмечается, что это право вытекает из неизменной природы человека и связано с правом на жизнь. Основой трудового права как неотъемлемого, естественного права человека является жизнь и самооборона.

Если раньше до начала процесса рыночной экономики в нашей стране право на труд гарантировалось до заключения трудового договора, то теперь предоставляется гарантия в виде права работника на предоставление ему работы, обусловленной работодателем, уже после заключения трудового договора. Конституционное трудовое право составляет правовую базу всех трудовых прав граждан. Большинство конституционных прав, относящихся к сфере труда, носят субъективный характер.

В результате проведенных исследований был сделан вывод о том, что трудовое право-это не какие-то негарантированные полномочия, а право, существующее в рамках правоотношений. Только посредством категории правоотношений можно раскрыть правовую природу и социальное значение этого конституционного права. Таким образом, трудовое право можно определить как возможность, предоставляемую и гарантируемую государством гражданам, закрепленную в законодательстве.

**Ключевые слова**: труд, право, право на труд, свобода труда, трудовые права и свободы

## THE ESSENCE OF LABOR LAW

**U.A.AKBARLİ**

### SUMMARY

The article examines the essence of labor law as one of the socio-economic rights of citizens and notes that this right stems from the unchangeable nature of man and is associated with the right to life. The basis of labor law as an inalienable, natural human right is life and self-defense. If earlier, before the beginning of the process of a market economy in our country, the right to work was guaranteed before the conclusion of an employment contract, now a guarantee is provided in the form of an employee's right to provide him with work stipulated by the employer, after the conclusion of an employment contract. Constitutional labor law forms the legal basis for all labor rights of citizens. Most constitutional rights related to the sphere of work are subjective in nature. As a result of the conducted research, it was concluded that labor law is not some kind of non-guaranteed powers, but a right existing within the framework of legal relations. Only through the category of legal relations can the legal nature and social significance of this constitutional right be revealed. Thus, labor law can be defined as an opportunity provided and guaranteed by the State to citizens, enshrined in legislation.

**Keywords**: labor, law, right to work, freedom of work, labor rights and freedoms